# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Qurtuluşa aparan tarixi yol: 9 iyun 1993-cü il



3

## Böyük Qayıdış: Biz yurd yerlərimizi yenidən dirçəldirik!



2

SƏS

№ 043 (7453)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

9 iyun 2026-cı il.
Qiymәti 1 manat

# Paşinyan qələbə, yoxsa mandat qazandı?

*Qələbə konstitusiya dəyişikliyində təkrarlanacaqmı?*



4

## "15 iyun milli sabitliyin bərpa olunduğu tarixdir"




6

## Gələcəkdə bu bacarıqlar diplomdan daha vacib olacaq...



8

## "Heydər Əliyev məktəbi" layihəsi başa çatıb



5

## Mavi iqtisadiyyat təhlükədə: çıxış yolu nədir?



7

## Qərb Paşinyanı SEÇDİRDİ - Putinin cavabı nə olacaq?



6

# Böyük Qayıdış: Biz yurd yerlərimizi yenidən dirçəldirik!

Ermənistanın təcavüzünə məruz qalmış və ərazilərinin 20 faizi 30 illik işğal altında olmuş Azərbaycan 2020-ci ilin noyabrında işğala son qoyduqdan və ərazi bütövlüyünü bərqərar etdikdən sonra işğaldan azad etdiyi ərazilərinin bərpasına başlayıb. Təcavüz nəticəsində bu ərazilərdən didərgin salınmış soydaşlarımızın doğma şəhər və kəndlərinə qaytarılması üzrə Böyük Qayıdış Dövlət Proqramını həyata keçirir. Azərbaycan Hökumət Komissiyasının qiymətləndirməsinə əsasən, hərbi təcavüz və işğal Azərbaycana 150 milyard ABŞ dolları dəyərində zərər vurub. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həmin ərazilərdə abadlıq-quruculuq işləri geniş vüsət alıb. Ermənilərin xarabalığa çevirdiyi





məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir.

Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur.

## ŞÜKÜRBƏYLİDƏ YENİ HƏYAT

Bu gün növbəti köç karvanı ilə Şükürbəyli kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub. Ailələr sevinclə açarları qəbul edərək, evlərində məskunlaşıblar. Bu mərhələdə Şükürbəyli kəndinə 39 ailə olmaqla 165 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Qeyd edək ki, kənd tam müasir standartlara uyğun şəkildə yenidən qurulub və sakinlərin rahat yaşayışı üçün bütün zəruri infrastruktur yaradılıb. Kənddə hər biri 80 yerlik olmaqla iki körpələr evi-uşaq bağçası, 360 şagird yerlik məktəb binası, həkim məntəqəsi, musiqi məktəbi, klub-icma mərkəzi, həmçinin yerli icra strukturları üçün inzibati bina tikilib. Bununla yanaşı, 35/10 kV-luq elektrik yarımstansiyası inşa olunub, elektrik enerjisi, təbii qaz, içməli su, rabitə, internet və "İP TV" şəbəkələri yaradılıb, kənddaxili yollar asfaltlanıb. İlkin mərhələdə 635 fərdi yaşayış evi istifadəyə verilib. Onlardan 615-i sakinlər, 20-si isə xidməti istifadə üçün ayrılıb. Müasir üslubda inşa olunan evlər 2, 3, 4 və 5 otaqlıdır.

Şükürbəyliyə rayonun Şıxalıağalı, Dəjəl kəndləri və Mahmudlu qəsəbəsinin sakinləri də daxil olmaqla ümumilikdə 2522 nəfərin 615 ailənin köçürülməsi nəzərdə tutulur. Beləliklə, uzun illər həsrətdə doğma yurda qayıdışı gözləyən insanlar üçün Şükürbəylidə yeni həyat başlayıb. Burada həyata keçirilən quruculuq işləri Böyük Qayıdış proqramının uğurlu icrasının daha bir nümunəsidir. Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

## AZƏRBAYCANIN İQTİSADİ QÜDRƏTİNİN GÖSTƏRİCİSİ

Azərbaycan nailiyyətləri ilə dünya birliyində sayılıb-seçilən, təşəbbüsləri və nəhəng iqtisadi layihələri ilə bütün bəşəriyyətə fayda verən dövlətlər sırasındadır. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmiz iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir. Qeyri-neft sektorunun dinamik inkişafı və iqtisadiyyatın şaxələndirilməsi, informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi istiqamətində böyük nailiyyətlər əldə edib. Son illərin reallıqları bir daha göstərir ki, ölkəmizdə icra olunan islahatlar, həyata keçirilən dövlət proqramları bütün sahələrdə uğurların əldə olunması ilə nəticələnib. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir".

## HAMI ÜÇÜN BƏRABƏR İMKANLAR

Böyük Qayıdış Proqramı Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişaf üzrə elan etdiyi beş əsas milli prioritetindən biridir. Proqramın hazırlanması zamanı beynəlxalq təcrübə, müasir çağırışlar və azad edilmiş ərazilərin potensialı nəzərə alınıb. Eyni zamanda, BMT və digər beynəlxalq təşkilatların qlobal inkişaf prioritetləri ilə uyğunluq təmin olunub, Dayanıqlı İnkişaf Məqsədlərinə əsaslanaraq "hamı üçün bərabər imkanlar", "inklüziv yanaşma" və "heç kimin geridə qalmaması" prinsipləri rəhbər tutulub. Bu gün Azərbaycan Qarabağ və ətraf ərazilərin bərpası, yenidən qurulması və məcburi köçkünlərin mərhələli qayıdışını təmin etmək kimi mühüm bir missiyanı həyata keçirir. Artıq 12 rayon və 11 şəhər daxil olmaqla 91 yaşayış məntəqəsi üzrə yeni məskunlaşma planları təsdiqlənib: "Bu, dünya urbanistika və memarlıq təcrübəsində çox nadir və unikal nümunələrdən biridir. Bundan əlavə, minalanmış ərazilərin xəritələrinin tam şəkildə təqdim olunmaması səbəbindən mülki əhali üçün ciddi təhlükə qalmaqdadır. 2020-2024-cü illər ərzində mina partlayışları nəticəsində 420-dən çox insan həlak olub və ya ağır yaralanıb. Onların arasında doğma yurdlarına qayıtmaq istəyən keçmiş məcburi köçkünlər də var. Bütün bu çətinliklərə, mina təhlükəsi və genişmiqyaslı dağıntılara baxmayaraq, Azərbaycan dövləti bu prosesi qətiyyətlə davam etdirir.

## ZƏFƏR YOLUMUZ

Zəfər yolunun tikintisinin qısa vaxtda həyata keçirilməsi Azərbaycan xalqının qazandığı parlaq Qələbənin simvoludur. Ali mühəndislik düşüncəsinin, yüksək texnoloji imkanların istifadə olunduğu bu layihə ilin bütün fəsillərində çətin relyef şəraitində, keçilməz dağ yolları yarılaraq həyata keçirilib. Qısa vaxtda icra olunan və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi. Şanlı Ordumuzun ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən və Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən "Zəfər yolu" adlandırılan avtomobil yolunun inşası dövlətimizin başçısının daimi nəzarəti altında icra olunub. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir. Bu layihə həm də ona görə müstəsna əhəmiyyət daşıyır ki, o, ilk növbədə, öz doğma yurdlarına qayıdacaq insanların rahatlığının təmin olunmasına, onlar üçün yüksək səviyyəli həyat və yaşayış standartının yaradılmasına xidmət edir.



İşğaldan azad olunan ərazilərimiz özünün yeni inkişaf mərhələsini yaşayır. Qarşıya qoyulan hədəflərə uyğun olaraq bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi davamlı xarakter daşıyır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də digər infrastrukturların tikilməsi və yenilənməsi bu ərazilərin dirçəlməsinə və inkişafına xidmət göstərir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qurtuluşa aparan tarixi yol: 9 iyun 1993-cü il

1993-cü ilin 9 iyun tarixi Azərbaycan dövlətçiliyinin, müstəqilliyinin xilası günü olaraq tariximizdə yer alıb. Həmin tarixi gündə Ümummilli Lider Heydər Əliyev xalqın çağırışına səs verərək Naxçıvandan Bakıya qayıdıb, müstəqilliyimizi və dövlətçiliyimizi xilas edib. Həmin gün ölkəmizin taleyində mühüm tarixi hadisə olaraq yer alıb və Qurtuluşa doğru mühüm addım atılıb. O addım suverenliyin, sabitliyin və sosial-iqtisadi inkişafın təməli olmaqla, Azərbaycanın gələcək inkişaf perspektivlərini müəyyənləşdirib, xalqımızı nicat yoluna çıxarıb. Bu gün əgər Azərbaycanın uğurlu inkişafından, Zəfər tariximizdən söz açırıqsa, unutmamalıyıq ki, həmin tarixi dövrün mürəkkəb, ziddiyyətli məqamları Azərbaycanı yox olmaq təhlükəsi ilə üz-üzə qoymuşdur. Bu günün real mənzərəsi - Azərbaycanın beynəlxalq miqyasda etibarlı tərəfdaş, demokratik ölkə kimi tanınması, dinamik inkişafımız, öz sözünü gücü ilə deyən müzəffər ordumuz, ümumilikdə ölkəmizin keçdiyi uğurlu inkişaf yolu məhz Ulu Öndər Heydər Əliyevin uğurlu siyasətinin məntiqi nəticəsidir. Azərbaycanın müstəqil dövlət kimi təbii sərvətlərinə sahib çıxması, milli mənafeyini, iqtisadi və strateji maraqlarını müdafiə etmək gücünə malik olması, məhz Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətindən qaynaqlanıb. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb. Azərbaycanı, Azərbaycan xalqını böyük bəladan, dəhşətli fəlakətdən Ulu Öndər Heydər Əliyev fenomeni, cəsarəti və müdrikliyi qoruyub-saxlayıb. Ulu Öndər Heydər Əliyevin fəaliyyəti, iradəsi və xalqa arxalanması, xalqın da öz Müdrik Liderinə güvənməsi və geniş xalq məhəbbəti vəhdətdə birləşdiyindən, Azərbaycan dövlətçiliyi məhvolma təhlükəsindən xilas oldu. Xalqımızı nicata aparan yol 1993-cü ilin 9 iyun tarixində başlanmışdır. Həmin gün Ulu Öndər Heydər Əliyev Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində çox mühüm bir addım atmışdı. Məlumdur ki, 1990-cı ilin Qanlı 20 Yanvar hadisələrindən sonra Ulu Öndər Heydər Əliyevin Moskvadan Azərbaycana qayıtması, Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilməsi, artıq bu mübarizə alovunu gücləndirdi və Müdrik Siyasətçinin uzaqgörən siyasəti xalqın buxovlanmış arzularının yolunda ümid çırağı yandırmış oldu. Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan Parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə oldu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul edildi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan KP-nin fəaliyyəti dayandırıldı və onun bütün strukturları ləğv edildi.

## "1993-CÜ İLİN İYUN AYINDA AZƏRBAYCANDA BÖYÜK DÖVLƏT BÖHRANI YARANDI"

Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə qəbul etdi. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin Sessiyasında tarixi sənəd qəbul edildi. Amma Azərbaycan müstəqillik əldə etmiş olsa da, ölkədə hökm sürən ictimai-siyasi proseslər ölkəni məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. O dövrdə siyasi hakimiyyətdə olanların səriştəsizliyi üzündən vətəndaş müharibəsinə rəvac verildi, milli dövlətçiliyimiz ikinci dəfə məhv olmağın bir addımlığına gətirildi. Belə bir zamanda, xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Ümummilli Lider Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu Öndər o dövrün Azərbaycanını belə xarakterizə edirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".



Xatırladaq ki, 1993-cü il iyunun 4-də Gəncədə başlayan qanlı hadisələr Azərbaycanı milli istiqlaldan məhrum olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. AXC-Müsavat iqtidarı bu addımın qarşısını almaq üçün heç bir iş görmək gücündə deyildi. Şəxsi maraqların ictimai maraqlardan üstün tutulması, xəyanətə yol verilməsi, dövlətçiliyimizi təhlükə qarşısında qoyan addımların atılması məhz belə bir situasiyanın yaranmasına səbəb olmuşdur.

Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Ulu Öndərin bu qayıdışı Vətənin xilası və xalqın qurtuluşu idi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi nə Azərbaycandan, nə də ölkəmizdəki bugünkü əmin-amanlıqdan və inkişafdan danışmaq olmazdı.

## "AZƏRBAYCAN XALQI AZADLIĞINI ƏLDƏ ETMİŞ XALQ KİMİ YAŞAYACAQ"

Sonrakı hadisələr daha müsbət məcralara yönəldi, ölkədə nisbətən sabitlik yarandı və oktyabrın 3-də Ulu Öndər Heydər Əliyev xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi. 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışı ilə Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev Özü ilə bərabər Azərbaycana siyasi müdriklik gətirdi. "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz",- deyirdi Ulu Öndər Heydər Əliyev. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən ictisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Ümummilli Lider Heydər Əliyev "Müstəqilliyin qorunması onu əldə etməkdən qat-qat çətindir" məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı.

Ölkənin sənaye ölkəsinə çevrilməsində, hərbi potensialının güclənməsində, kadr potensialının hazırlanmasında və s. proseslərdə uğurlar müşayiət olundu və bütün sahələrdə dönüş yarandı. Böyük Şəxsiyyət Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycanın dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. 1993-cü ildən başlayaraq, dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə, əgər müstəqillik Azərbaycanın suveren dövlət kimi mövcud olması, tarixi zərurətdən irəli gələn hadisə idisə, Azərbaycanın müstəqilliyi əbədiliyi və dönməzliyi Ümummilli Lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olan müasir tariximizin danılmaz faktıdır.

## AZƏRBAYCANDA MÜSTƏQİL DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİ FORMALAŞDIRILDI

Böyük Qayıdışın möhtəşəm nəticələri təkcə Azərbaycanın dövlət müstəqilliyinin əbədiləşdirilməsi, ölkəmizin parçalanmasının qarşısının alınması və vətəndaş müharibəsinin dayandırılması ilə ifadə edilmir. Bu gün Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilmişdir. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Bakının mövqeyini nəzərə alırlar. Ölkəmiz sosial-iqtisadi inkişafın tempinə görə dünya dövlətləri arasında liderlər sırasındadır.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə yenidən qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələr məkanında nəzərəçarpan dönüş yarandı. Elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil siyasi inkişaf dövlətimizin möhkəmləndirilməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı.

Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Azərbaycanın uğurlu inkişafı təmin edilib və qarşıda duran bütün əsas vəzifələr uğurla icra edilib. Bunun təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır.

## AZƏRBAYCANI ZƏFƏRƏ, QƏLƏBƏYƏ APARAN YOL

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Tarixi qələbənin qazanılmasında Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğulların şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu tarixi gündə gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib", - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirib. Onu da qeyd edib ki, bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Xalq-iqtidar birliyi Azərbaycanı ZƏFƏRƏ, QƏLƏBƏYƏ apardı. Ali Baş Komandanımız, möhtərəm Prezidentimiz cənab İlham Əliyev müzəffər ordumuzun qələbəsi ilə Azərbaycan tarixinə silinməz tarixi izlər həkk etdi, Zəfər tarixini əbədi olaraq tariximizin parlaq səhifəsinə həkk etdi.

***Zümrüd BAYRAMOVA***

# Paşinyan qələbə, yoxsa mandat qazandı?

*Qələbə konstitusiya dəyişikliyində təkrarlanacaqmı?*

Ermənistanın Baş naziri Nikol Paşinyanın hakim Vətəndaş Müqaviləsi Partiyası, bütün 2005 seçki məntəqəsindən ilkin məlumatlara görə, səslərin 49,81%-ni toplayıb. Bu, Mərkəzi Seçki Komissiyasının onlayn tablosuna görədir. Paşinyan partiyası həmçinin ölkə kabinetini formalaşdırmaq üçün müstəsna hüquq qazanıb, çünki qanuna görə, ən çox səs toplayan partiyaya ölkədəki milli azlıqlar da yer verir. Biznesmen Samvel Karapetyanın ”Güclü Ermənistan” bloku 23,29%, keçmiş prezident Robert Köçəryanın ”Ermənistan” bloku isə 9,94% səs toplayıb. Biznesmen Qagik Çarukyanın ”Çiçəklənən Ermənistan” partiyası isə 4% səs toplayıb və Ermənistan parlamentinə də daxil olub. Seçkilərdə iştirak 58,97% olub.Ermənistan da keçirilən parlament seçkilərinin nəticələri ümumilikdə sürpriz sayıla bilməz, amma bəzi detallar gözləniləndən fərqli oldu. Seçkilərdə Baş nazir Nikol Paşinyan rəhbərlik etdiyi Mülki Müqavilə Partiyası təxminən 49,8% səs toplayaraq birinci oldu və hakimiyyətini qorudu. Əsas müxalif qüvvə olan Güclü Ermənistan isə təxminən 23% səs aldı. Qiymətləndirməyə gəlincə, nəticənin gözlənilən tərəflərinə diqqət etmək lazımdır. Seçkiyə qədərki sorğuların əksəriyyəti Paşinyanın partiyasını birinci göstərirdi. 2023-cü ildə Qarabağın tam itirilməsinə görə ona ciddi tənqidlər olsa da, müxalifətin parçalanmış vəziyyətdə olması hakim partiyanın üstünlüyünü qoruyub saxladı.Ermənistan cəmiyyətinin bir hissəsi Paşinyanın Azərbaycan və Türkiyə ilə normallaşma siyasətini riskli saysa da, digər hissəsi bunu müharibədən çıxış yolu kimi görür. Bu da onun əsas seçici bazasını qorudu. Paşinyan qalib gəlsə də, əvvəlki seçkilərlə müqayisədə dəstəyi azaldı və konstitusiya dəyişiklikləri üçün lazım olan çox böyük çoxluğu əldə edə bilmədi. Rusiyaya yaxın müxalif qüvvələrin ümumi nəticəsi kifayət qədər yüksək oldu. Bu, Ermənistan cəmiyyətində Qərbə inteqrasiya kursu ilə bağlı yekdil mövqenin olmadığını göstərir.Siyasi baxımdan seçkinin əsas mesajı budur: Ermənistan seçicisi Paşinyanı tam rədd etmədi, amma ona əvvəlki qədər güclü mandat da vermədi. Yeni seçici bir tərəfdən kursun davam etməsini istəyir, digər tərəfdən hakimiyyət üzərində daha çox nəzarət və balans görmək istəyir. Azərbaycan baxımından isə ən mühüm nəticə odur ki, Paşinyan hökuməti fəaliyyətini davam etdirəcək və sülh sazişi üzrə danışıqların davam etməsi ehtimalı yüksəkdir. Lakin parlamentdəki daha güclü müxalifət onun manevr imkanlarını müəyyən qədər məhdudlaşdıra bilər.



## Ermənistanda xüsusi seçki əməliyyatı

Baş nazir Nikol Paşinyan Ermənistanda keçirilən parlament seçkilərini ölkə üçün taleyüklü hesab edir. O, müxalifətin qələbəsinin cəmi bir neçə ay ərzində Azərbaycanla müharibəyə səbəb ola biləcəyinə əmin idi. Sorğular ölkə əhalisinin yalnız üçdə birinin ”Vətəndaş Müqaviləsi” partiyasını dəstəklədiyini göstərdiyindən, hakimiyyət seçkilərə xüsusi hərbi əməliyyat kimi yanaşmaq qərarına gəldi. Müxalifət də Paşinyanın hücumlarına qarşılıq verməkdən çəkinmədi. Xüsusilə, rusiyapərəstlərin özlərini sərbəst aparmaları diqqətdən yayınmadı.İrəvanda hər şeyin yaxşı olmadığı artıq hava limanında aydın oldu. Rusiyadan gələn erməni əsilli sərnişinlərin hava limanından çıxarkən hərbi polis əməkdaşları tərəfindən fərq qoyulmadan 25 günlük hərbi təlimlərə göndərməsi hakimiyyətin hazırlığını büruzə verdi. Bundan əlavə, hökumətyönlü media iddia edir ki, hökumət çağırış yaşında olan ermənilərin seçkilərdə iştirakdan sonra ölkəni tərk etməsinə icazə verməyəcək. Bunun əvəzinə, onlar bir il yarım müddətinə orduya göndəriləcəklər.”Mən Köçəryana səs verəcəyəm. Paşinyan türk agentidir”, - deyə yerli sakin Arayik iddia edir. ”2018-ci ildən bəri onun xain olduğunu və yalnız Qarabağı təslim etmək və Rusiyanı Ermənistandan çıxarmaq üçün gücə ehtiyacı olduğunu bilirəm. Görəcəksiniz ki, əgər o, yenidən qalib gəlsə, Gümrüdəki Rusiya hərbi bazası növbəti beş il ərzində ləğv ediləcək. Bu düşmənə yalnız sektantlar və ”Şarikovlar” səs verərdilər! Əgər Azərbaycanlılar torpaqlarının hər santimetri üçün ölməyə hazırdırlarsa, onda hamısını Aİ-yə vizasız girişlə dəyişdirmək istəyirlər. Daha axmaqlar Avropaya turist vizası ilə gələ, orada iş tapa və sonda statuslarını leqallaşdıra biləcəklərini düşünürlər. Daha varlılar isə sadəcə Parisdə selfi çəkmək istəyirlər. Və Ermənistanın azərbaycanlılar tərəfindən ələ keçirilməsinin onlara heç bir əhəmiyyəti yoxdur.”Politoloq Qrant Mikaelyan bu cür çıxışların qeyri-adi bir şey olmadığına deyib. ”Qarabağ müharibəsindən sonra Paşinyanın tərəfdarları ilə əleyhdarları arasında aşılmaz bir divar yaranıb. Onlar bir-birindən nifrət edirlər və zaman keçdikcə bu hiss daha da güclənir. Məsələn, baş nazirin tərəfdarı həyatda müəyyən çətinliklərdən əziyyət çəkirsə, müxalifət lideri ona heç vaxt kömək etməyəcək, çünki o, onların siyasi fikir ayrılıqlarını xatırlayacaq. Və bu, əksinə eyni şəkildə işləyəcək. ”Ermənistan əslində soyuq vətəndaş müharibəsinin ortasındadır”, - deyə Mikaelyan vurğulayıb.

Onlar ayrı-ayrı qruplarda dayanırdılar, nətiqlərə zəif reaksiya verirdilər və ümumiyyətlə, iclasın bitməsini gözləyirdilər. Lakin hakim partiyanın seçki kampaniyasının kulminasiya mərhələsində iştirak etməkdən məmnun olanlar da var idi. Onlar uşaqlarını gətirdilər, sinələrində qürurla Ermənistan nişanları taxdılar, həvəslə ”Nikol-varçapet” (”Nikol Baş nazirdir”) şüarları səsləndirdilər və hətta kürsüdən danışan Mülki Müqavilə funksionerlərinin cümlələrini bitirdilər.Bu arada, seçkilər ərəfəsində bir neçə yüz müxalifət fəalı səs almaq ittihamı ilə həbs edilib. Hakim partiyanın əleyhdarları da daim telefon danışıqlarının dinlənilməsindən və bəzən hətta qanunu pozmağa təhrik edilməsindən şikayətlənirlər. ”Tərəfdarlarımız hazırda həbs olunur, bu gün çoxları həbs olunub, dünən isə 100-dən çox insan həbs olunub. Amma bu, ciddi bir şey deyil”, - deyə Samvel Karapetyan öz seçki məntəqəsində bildirib.

## Nikol Azərbaycandan danışdı

”Ermənistan yaxın gələcəkdə Azərbaycanla sülh müqaviləsini institutlaşdırmaq niyyətindədir”. Baş nazir Nikol Paşinyan bunu 8 iyunda Parlamentin Dövlət və Hüquq Məsələləri Daimi Komitəsinin iclasında Korrupsiyanın Qarşısının Alınması üzrə Komissiyanın 2025-ci il fəaliyyət hesabatının müzakirəsi zamanı bildirib. ”Biz bu istiqamətdə işləyəcəyik”, - deyə baş nazir bildirib. Paşinyan qeyd edib ki, TRIPP-nin ratifikasiya prosesinə tezliklə başlamaq lazımdır. ”Ermənistan dünyanın qovşağına çevrildiyi üçün bunun həqiqətən transformativ bir layihə olduğunu təsdiqləmək vacibdir”, - deyə hökumət başçısı vurğulayıb.

**V.VƏLİLİ**





# “Şəhərsalma mədəniyyəti: ənənə və müasirliyin sintezi”

**Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə Göygöl rayonunda yerləşən Yaylaq düşərgəsində keçirilən ”Heydər Əliyev məktəbi” layihəsinin dördüncü günündə gənc fəallarla ”Şəhərsalma mədəniyyəti: ənənə və müasirliyin sintezi” mövzusunda görüş keçirilib.**

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Görüşdə çıxış edən Milli Məclisin deputatı Müşfiq Cəfərov, Gəncə Regional Turizm İdarəsinin rəisi Fariz Qarayev və Gəncə-Daşkəsən Regional Gənclər və İdman İdarəsinin rəisi Elşən Hüseynov şəhərlərin xalqın tarixini, mədəniyyətini, həyat tərzini və gələcəyə baxışını əks etdirən canlı məkanlar olduğunu vurğulayıb, şəhərsalma mədəniyyətində ənənə ilə müasirliyin uzlaşdırılmasının xüsusi əhəmiyyət daşıdığını bildiriblər.

Qeyd olunub ki, Azərbaycan son illərdə bu istiqamətdə özünəməxsus şəhərsalma yanaşması formalaşdırıb. Bu yanaşmanın əsas xüsusiyyəti müasir texnologiyaların tətbiqi ilə milli memarlıq irsinin qorunmasının vəhdət təşkil etməsidir. Şəhərlərin inkişafında yalnız estetik görünüş deyil, insanların rahatlığı, ekoloji tarazlıq, sosial inteqrasiya və mədəni irsin yaşadılması da əsas prinsiplər kimi qəbul edilir. Həmçinin vurğulanıb ki, Bakıda keçirilmiş Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) Azərbaycanın şəhərsalma sahəsində qazandığı təcrübənin beynəlxalq ictimaiyyətlə paylaşılması baxımından mühüm platforma rolunu oynayıb.



Müzakirələr zamanı Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı yenidənqurma və bərpa layihələrinin müasir şəhərsalma standartlarının uğurlu nümunəsi olduğu diqqətə çatdırılıb. Qeyd edilib ki, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən ”ağıllı şəhər” və ”ağıllı kənd” konsepsiyaları milli memarlıq elementləri ilə harmonik şəkildə birləşdirilərək gələcəyin yaşayış məkanlarının formalaşdırılmasına xidmət edir.

Çıxışlarda gənclərin bu prosesdə mühüm rol oynadığı vurğulanaraq, onların həm milli irsin qorunmasına, həm də innovativ ideyaların tətbiqinə töhfə vermələrinin vacibliyi qeyd edilib. Diskussiya zamanı gənclər mövzu ilə bağlı fikirlərini bölüşərək fəal müzakirələr aparıblar. Görüş Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsilə başa çatıb.

Daha sonra iştirakçıların Göygöl Milli Parkına ekskursiyası təşkil olunub. Gənclər parkın təbii gözəllikləri ilə yaxından tanış olub, Göygölün yaranma tarixi haqqında məlumat əldə ediblər. Ekskursiya zamanı ətraf mühitin qorunmasının əhəmiyyəti barədə maarifləndirici söhbətlər aparılıb. Həmin gün layihə iştirakçıları arasında tir atıcılığı üzrə idman yarışı və ”Zamanın izində: tarix və inkişaf” mövzusunda Breyn-rinq formatında intellektual oyun da keçirilib.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Böyük Birlik Partiyasının 13-cü qurultayında iştirak ediblər

***Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mübariz Qurbanlı və YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Taleh Həsənzadə Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərində keçirilən Böyük Birlik Partiyasının (BBP) 13-cü qurultayında iştirak edib. Qurultaya Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) və digər bir sıra siyasi partiyaların nümayəndələri, ictimai xadimlər, eləcə də Azərbaycan, Özbəkistan, Şimali Makedoniya, Şimali Kipr Türk Cümhuriyyəti və başqa ölkələrdən dəvət olunmuş qonaqlar qatılıblar.***

Tədbirdə Türkiyə Cümhuriyyətinin Prezidenti, AK Parti Sədri Rəcəb Tayyib Ərdoğanın qurultay iştirakçılarına müraciəti səsləndirilib. Böyük Birlik Partiyasının sədri Mustafa Destici qurultay iştirakçılarını salamlayaraq partiyanın fəaliyyətinə dair məruzə ilə çıxış edib.









Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinə toxunan Mustafa Destici Qarabağda dalğalanan Azərbaycan bayrağının bütün Türk dünyası üçün qürur mənbəyi olduğunu vurğulayıb. O, Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpasını tarixi nailiyyət kimi dəyərləndirərək, bu münasibətlə Azərbaycan Prezidenti İlham Əliyevə və rəşadətli Azərbaycan Ordusuna təşəkkürünü ifadə edib. Mustafa Destici Qarabağ Zəfərinin təkcə Azərbaycan xalqının deyil, bütövlükdə Türk dünyasının sevinc və qürur mənbəyi olduğunu, bu tarixi qələbənin türk xalqları arasında birlik və həmrəyliyin güclənməsinə mühüm töhfə verdiyini bildirib.

BBP sədri ötən il Azərbaycana səfərini xatırladaraq göstərilən qonaqpərvərliyə görə Yeni Azərbaycan Partiyasına təşəkkür edib. O, YAP ilə əlaqələrin əhəmiyyətini vurğulayaraq qarşılıqlı faydalı əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminliyini ifadə edib.

Qurultay çərçivəsində partiyanın hesabat məruzələri dinlənilib, təşkilati məsələlərə baxılıb, qarşıdakı dövr üçün fəaliyyət prioritetləri müzakirə olunub, həmçinin partiyanın rəhbər və idarəetmə orqanlarına seçkilər keçirilib. Çıxışlarda milli həmrəyliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf, sosial rifahın yüksəldilməsi, türk dünyasında əməkdaşlığın genişləndirilməsi və regional təhlükəsizlik məsələlərinə dair fikirlər səsləndirilib. Qurultayın sonunda keçirilən seçkilərin nəticələrinə əsasən Mustafa Destici yenidən Böyük Birlik Partiyasının sədri seçilib.

# "Heydər Əliyev məktəbi" layihəsi başa çatıb



***İyunun 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində təşkil olunan "Heydər Əliyev məktəbi" layihəsi başa çatıb.***

Göygöl rayonunda yerləşən Yaylaq düşərgəsində keçirilən layihənin bağlanış mərasimində Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə YAP Mərkəzi Aparatı rəhbərinin müavini Ramilə Bədəlova, YAP İdarə Heyətinin üzvü, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, YAP Mərkəzi Aparatının Təşkilat və Gender siyasəti və gənclərlə iş şöbələrinin baş məsləhətçiləri Araz Salmanov və Günel Məmmədova çıxış ediblər.

Qeyd olunub ki, ölkəmizdə gənclərin hərtərəfli inkişafı daim diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyevin gənclərə göstərdiyi diqqət və qayğı, onların təhsilinə, şəxsi inkişafına və ictimai fəallığının artırılmasına yönəlmiş ardıcıl siyasət bu sahədə əldə olunan nailiyyətlərin əsasını təşkil edir. Yeni Azərbaycan Partiyası da bu siyasətə uyğun olaraq gənclərin bilik və bacarıqlarının artırılması, vətənpərvər ruhda yetişməsi və cəmiyyət həyatında daha fəal iştirak etməsi üçün müxtəlif layihələr həyata keçirməkdədir. "Heydər Əliyev məktəbi" layihəsi də həmin məqsədlərə xidmət edən mühüm layihələrdən biridir.




Vurğulanıb ki, layihə əsas məqsədlərindən biri də ölkəmizin müxtəlif şəhər və rayonlarından olan gənclər arasında əlaqələrin daha da gücləndirilməsi olub. Layihə çərçivəsində keçirilən tədbirlər gənclərin komanda işi, ünsiyyət və təşkilatçılıq bacarıqlarının inkişafına mühüm töhfə verib. Bu cür təşəbbüslər gənclərin inkişafında, onların cəmiyyət həyatında daha fəal iştirakının təmin edilməsində və milli-mənəvi dəyərlərə bağlı, savadlı gənc nəslin formalaşmasında mühüm rol oynayır.



Layihə iştirakçıları Nazpəri Rzayeva, Zəka Məhərrəmov, Nuranə Mirzəyeva, Əliheydər Abdullayev və başqaları düşərgə barədə təəssüratlarını bölüşüblər.

Daha sonra "Heydər Əliyev məktəbi" layihəsinin iştirakçılarına sertifikatlar, intellektual yarışlarda qələbə qazanan komandalara xatirə kubokları verilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# "15 iyun milli sabitliyin bərpa olunduğu tarixdir"

*Tarixçi mühüm məqamlara aydınlıq gətirdi*




"Azərbaycan xalqının Milli Qurtuluş Günü ölkəmizdə hər il 15 iyun tarixində qeyd olunan mühüm dövlət bayramlarından biridir. Bu gün Azərbaycan tarixində dönüş nöqtəsi hesab olunur və dövlətçilik tariximizin ən əlamətdar hadisələrindən biri kimi qiymətləndirilir".Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun əməkdaşı Faiq İsmayılov deyib.O bildirib ki, Azərbaycan 1991-ci ilin oktyabr ayında dövlət müstəqilliyini bərpa etsə də, müstəqilliyin ilk illərində ölkədə ciddi siyasi, iqtisadi və hərbi problemlər mövcud idi: "Hakimiyyət böhranı, dövlət institutlarının zəif fəaliyyəti, daxili siyasi qarşıdurmalar və Ermənistanın hərbi təcavüzü ölkədə mürəkkəb vəziyyət yaratmışdı. Dövlətçiliyin gələcəyi ciddi təhlükə altına düşmüşdü.1993-cü ilin iyun ayında ölkədə yaranmış siyasi böhran və Gəncə hadisələri vəziyyəti daha da gərginləşdirmişdi. Azərbaycan vətəndaş qarşıdurması və parçalanma təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir mürəkkəb şəraitdə xalqın tələbi ilə Heydər Əliyev Bakıya dəvət olundu.1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu hadisə ölkədə ictimai-siyasi sabitliyin bərpası, dövlətçiliyin möhkəmləndirilməsi və milli birliyin təmin olunması istiqamətində mühüm mərhələnin başlanğıcı oldu. Məhz buna görə 15 iyun Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.1997-ci ildə bu gün rəsmi şəkildə Milli Qurtuluş Günü elan edildi, 1998-ci ildən etibarən isə dövlət bayramı statusu aldı.Bu gün Azərbaycan xalqı Milli Qurtuluş Gününü dövlətçiliyin qorunması, milli birliyin möhkəmləndirilməsi və ölkənin inkişaf yoluna çıxmasının rəmzi kimi qeyd edir".

***G. Fərzəliyeva***

## Qərb Paşinyanı SEÇDİRDİ - Putinin cavabı nə olacaq?

Mətləb Salahov: "Rusiya tərəfdarları ilə Paşinyan arasında siyasi düşmənçilik parlamentdə davam edəcək"



"Ermənistandakı parlament seçkiləri həm Ermənistanın özünün, həm də regionun gələcək siyasi xəritəsi baxımından mühüm nəticələrlə bitdi. Qərbin və Donald Tramp Administrasiyasının ciddi dəstək verdiyi Nikol Paşinyan hakimiyyəti yüksək seçici fəallığı şəraitində müxalifət üzərində əzici qələbə qazandı. Bu fakt, həm də Ermənistan ictimai rəyinin Rusiyayönümlü siyasətə qarşı mənfi münasibətini də ortaya qoydu. Moskvanın ciddi cəhdinə baxmayaraq Rusiyapərəst revanşistlər N.Paşinyanı hakimiyyətdən devirə bilmədilər."

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist- ekspert Mətləb Salahov bildirib. Onun sözlərinə görə, Moskva öz tərəfdarlarını artıq parlament müstəvisində mübarizəyə cəlb edəcək. Burada məsələ daha kəskin xarakter alacaq. "Bu seçkilərdə Moskvayönümlü revanşistlər 37 deputat yeri qazanıblar. N.Paşinyanın komandası isə keçən seçkilərdən fərqli olaraq on deputat yeri itirərək 61 yerlə kifayətlənib. Çox güman ki, Vladimir Putinin N.Paşinyan və onun arxasındakı Qərb qüvvələri ilə mübarizəsi həm də bu qanunverici orqanda davam edəcək. Rusiyanın İrəvandakı gələcək varlığı N.Paşinyana qarşı birbaşa cavab tədbirlərinin effektli olub- olmaması ilə müəyyənləşəcək. Hazırda Kreml hələ ki, N.Paşinyanı Qərbin müdaxilə etdiyi seçki yolu ilə qalib olmaqda ittiham edir. Lakin on illər boyu Ermənistanın "xozeyni" olan Rusiyanın daha planlı hücumlar hazırlayacağı qaçılmazdır".

***Afət Tahirqızı***

# Vətəndaşlar 9 iyunun Azərbaycan tarixindəki rolunu necə qiymətləndirirlər?

**SORĞU**

9 iyun Azərbaycan siyasi tarixində dönüş nöqtələrindən biri kimi qiymətləndirilir. Məhz həmin tarixi gündə Ümummilli Lider Heydər Əliyev xalqın çağırışına səs verərək Naxçıvandan Bakıya qayıtdı və ölkənin taleyində mühüm rol oynayan yeni bir mərhələnin əsası qoyuldu. Həmin dövrdə Azərbaycan dərin siyasi böhran, iqtisadi çətinliklər və vətəndaş qarşıdurması təhlükəsi ilə üz-üzə idi. Ölkədə yaranmış gərgin ictimai-siyasi vəziyyət dövlət müstəqilliyini ciddi təhdid altında qoymuşdu. Belə bir şəraitdə Heydər Əliyevin Bakıya qayıdışı cəmiyyətdə sabitliyə, dövlətçiliyin qorunmasına və milli birliyin möhkəmlənməsinə böyük ümid yaratdı. Qısa müddət sonra həyata keçirilən siyasi qərarlar nəticəsində ölkədə sabitlik təmin olundu, dövlət idarəçiliyi gücləndirildi və Azərbaycanın gələcək inkişaf strategiyasının əsas istiqamətləri müəyyənləşdirildi.

Bu hadisə müasir Azərbaycan tarixində təkcə siyasi dəyişiklik kimi deyil, həm də dövlətçilik ənənələrinin qorunması və milli həmrəyliyin nümayişi kimi dəyərləndirilir. Hər il 9 iyun tarixi həmin dövrün əhəmiyyətini xatırlatmaq, tarixi hadisələri yeni nəsillərə çatdırmaq və dövlətçilik ideyalarının təbliği baxımından xüsusi önəm daşıyır. Bəs görəsən şəhər sakinləri 9 iyun - Ümummilli Lider Heydər Əliyevin xalqın çağırışına səs verərək Naxçıvandan Bakıya qayıtdığı tarixi hadisə haqqında nə düşünür, onun Azərbaycanın inkişafında və dövlətçiliyinin möhkəmlənməsində rolunu necə qiymətləndirirlər?



SİA şəhər sakinləri arasında sorğu keçirib.

**Şəhər sakini Rafiq Qafarov:** "Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizin taleyində dönüş nöqtəsi oldu. O illərdə vəziyyət çox gərgin idi, insanlar gələcəklə bağlı narahatlıq yaşayırdı. Onun rəhbərliyə gəlməsindən sonra ölkədə sabitlik yaradıldı, dövlət idarəçiliyi gücləndirildi və insanlar öz gələcəyinə daha inamla baxmağa başladılar. Mən hesab edirəm ki, həmin dövrdə Azərbaycan xalqının birlik nümayiş etdirməsi də çox mühüm rol oynadı. Dövlətçiliyin qorunması naminə xalqın bir araya gəlməsi ölkənin çətinliklərdən çıxmasına kömək etdi. Bu gün əldə olunan inkişafın təməlində məhz həmin dövrdə atılan addımlar dayanır".

**Şəhər sakini Mirmehdi Qasımov:** "Bu gün Azərbaycanda hökm sürən sabitlik və inkişaf uzun illər aparılan məqsədyönlü siyasətin nəticəsidir. Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası ölkənin iqtisadi və siyasi cəhətdən güclənməsinə imkan yaratdı. Şəhərlərimizin siması dəyişib, yeni yollar, körpülər, məktəblər və xəstəxanalar tikilib. İnsan gündəlik həyatında bu dəyişiklikləri aydın hiss edir. Bakıdan bölgələrə qədər aparılan abadlıq və quruculuq işləri ölkəmizin inkişafını göstərir. Mən hesab edirəm ki, bu siyasət Azərbaycanın regionun güclü dövlətlərindən birinə çevrilməsində mühüm rol oynayıb".

**Şəhər sakini Sara Əliyeva:** "1990-cı illərin əvvəllərində yaşanan hadisələri yaxşı xatırlayıram. Həmin dövrdə insanlar sabahın necə olacağını bilmirdilər. Heydər Əliyevin Bakıya qayıdışı cəmiyyətdə böyük ümid yaratdı və qısa müddətdə ölkədə sabitlik təmin edildi. Bu gün müstəqil və güclü Azərbaycanda yaşamağımız həmin dövrdə qəbul edilən qərarların nəticəsidir".

**Şəhər sakini Mədinə Əbilova:** "Heydər Əliyevin fəaliyyətini dövlətçiliyin möhkəmlənməsi baxımından yüksək qiymətləndirirəm. Onun həyata keçirdiyi siyasət nəticəsində təhsil, səhiyyə və sosial sahələrdə mühüm dəyişikliklər baş verdi. Ən önəmlisi isə insanlar dövlətə və gələcəyə olan inamını yenidən qazandılar. Bu gün ölkəmizin inkişafı həmin siyasi kursun uğurla davam etdirildiyini göstərir".

**Şəhər sakini Aydın Məmmədov:** "Mən həmin çətin illərin canlı şahidiyəm. O zaman ölkədə ciddi problemlər vardı və xalq narahatlıq içində yaşayırdı. Heydər Əliyevin xalqın çağırışına cavab verərək Bakıya qayıtması dövlətçiliyin qorunması üçün həlledici addım oldu. Sonrakı illərdə iqtisadiyyatın inkişafı, beynəlxalq əlaqələrin genişlənməsi və sabitliyin təmin olunması Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasına şərait yaratdı".

**Şəhər sakini Samir Həsənov:** "Tarixə nəzər salanda görürük ki, ölkənin taleyini dəyişən məqamlar olur və 9 iyun həmin günlərdən biridir. Heydər Əliyevin siyasi təcrübəsi və qətiyyəti sayəsində Azərbaycan çətin sınaqlardan çıxdı, dövlət müstəqilliyi möhkəmləndi. Bu gün ölkəmizin qazandığı uğurlar və beynəlxalq nüfuzu həmin dövrdə əsası qoyulan dövlətçilik siyasətinin nəticəsi kimi qiymətləndirilməlidir".

***Günel***

# Mavi iqtisadiyyat təhlükədə: çıxış yolu nədir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb*

***Okenlar dünyanın ən güclü risk artırıcı faktorlarından biridir. Çünki onlar iqlimi tənzimləyir, qlobal ticarətin 80%-ni daşımaq üçün yol olur, şirin su və qida ilə təmin edir, habelə rabitəni təmin edir və sürətlə böyüyən mavi iqtisadiyyatın əsasını təşkil edir. Buna görə də, okeana etinasız yanaşmaq qlobal risk mənzərəsini də genişlətmək deməkdir.***



Qlobal iqlim böhranı nəticəsində dəniz suyunda turşulaşma, dəniz səviyyəsinin qalxması və buzlaqların əriməsi artdıqca insan sağlamlığı və asılı olduğumuz iqtisadi şərtlər təhlükə altına girir. Məhz buna görə də hər il 8 iyunda qeyd olunan Ümumdünya Okean Günü çox vacib qlobal kampaniyadır.

Bu il okean günü ”Mavi Planetimiz üçün Güclü Dəniz Mühafizə Əraziləri” mövzusunda qeyd edilir. Qlobal dünya son illərdəki əsas öhdəlikləri, o cümlədən 2030-cu ilə qədər quru və suyun ən azı 30%-ni qorumaq üçün 30x30 çərçivəsini, dəniz biomüxtəlifliyini qorumaq və dəniz ehtiyatlarını ədalətli şəkildə bölüşdürmək üçün ”Açıq Dənizlər Müqaviləsi”ni dəstəkləməlidir.

Sağlam okean həm də çiçəklənən qlobal iqtisadiyyatdır. Okean, dənizlər və sahillərlə əlaqəli bütün iqtisadi fəaliyyətlərdən ibarət olan mavi iqtisadiyyat artıq qlobal artımı üstələyir və 2050-ci ilə qədər 5 trilyon dollardan çox dəyərə malik olacağı gözlənilir. Lakin Dünya İqtisadi Forumunun ”Okean İqtisadiyyatı İmperativi” adlı brifinq sənədinə görə, təbiətin itirilməsi və iqlim təzyiqinin artması okeandan asılı bazarları artan risklərə məruz qoyur.

Bu arada, okeanların istiləşməsi və dəniz səviyyəsinin qalxması ilə bağlı son məlumatlar çox narahatedicidir. Buz örtüklərinin əriməsi səbəbindən dəniz səviyyəsinin qalxma sürəti 2015-ci ildəki 1,9 mm-dən 2023-cü ilədək 4,3 mm-ə qədər artıb. Bu, ikiqat artımdan da çoxdur. Arktika temperaturu qlobal orta göstəricidən 4 dəfə daha sürətli yüksəlir. Oksigen səviyyəsinin o qədər aşağı olduğu və dəniz canlılarının əksəriyyətinin yaşaya bilmədiyi hipoksik (ölü) zonalar hazırda 4,5 milyon km? ərazini əhatə edir. 1955-ci ildən bəri qeydə alınan okean temperaturunun ümumi artımının 16 faizi 2018-ci ildən sonra baş verib.

1970-ci illərdən bəri Karib dənizi mərcan riflərinin təxminən 80 faiz azalması təhlükənin arealından xəbər verir. İstiləşmə 1,5°C-ni keçərsə, qlobal mərcan riflərinin 90 faizi yox ola bilər. Manqrovlar və dəniz otları kimi vacib sahil ekosistemləri sürətlə kiçilməyə davam edir.

Hər il okeana 52 milyon ton plastik tullantı daxil olur və bu da təxminən 24 trilyon mikroplastik hissəciklərin əmələ gəlməsinə səbəb olur ki, bu hissəciklərin hazırda 4000-dən çox dəniz növünə mənfi təsir etdiyi məlumdur.

Kimyəvi çirklənmə də artmaqdadır, dəniz sularında 4000-dən çox kimyəvi birləşmə aşkar edilib. Bütün bunlara rəğmən bir yaxşı xəbər də var ki, bu da bir neçə bölgədə civə kimi bəzi köhnə çirkləndiricilərin azalmasıdır.

Dəniz və okeanlar qidalanma və dolanışıq üçün vacib bir mənbədir və dünya miqyasında insanlar tərəfindən istehlak edilən heyvan zülalının 20 faizini təmin edir. Dəniz akvakulturası genişlənməyə davam edir və hazırda qlobal miqyasda 90 milyard dollarlıq bir sənayeyə çevrilib. Bundan əlavə, 121 milyon insan dənizdə istirahət məqsədli balıq ovu ilə məşğul olur və yerli iqtisadiyyata və rifaha töhfə verir.

Lakin bu sistemlərin sabitliyi də getdikcə daha çox təhlükə altına düşür. Belə ki, 2021-ci ildə balıq ehtiyatlarının 37 faizi həddindən artıq ovlanıb. Qanunsuz, bildirilməmiş və tənzimlənməmiş balıq ovu ildə təxminən 8-14 milyon ton balıq ovuna səbəb olur ki, buradan da 9-17 milyard dollar qanunsuz gəlir əldə edilir. Xəstəliklərin yayılması, çirklənmə və iqlim stressi dəniz akvakulturası və balıqçılığının uzunmüddətli dayanıqlılığına şübhə yaradır.

Okean iqtisadiyyatı ildə 1,5 trilyon dollar dəyərində qiymətləndirilir və 2030-cu ilə qədər 3 trilyon dolları keçəcəyi proqnozlaşdırılır. Sahil və dəniz turizmi 174 milyon iş yeri deməkdir.

Okean idarəçiliyi üzrə beynəlxalq əməkdaşlıq geniş vüsət alır, lakin okeanın qorunması ilə bağlı 57 qlobal müqavilə parçalanmış bir yanaşmaya gətirib çıxarır. Davamlı okean iqtisadiyyatına nail olmaq üçün bərabərlik və yekdil fikir şərtdir. Bunlar olmadan okean sağlamlığına, bərabər inkişafa nail olmaq daha çətin olacaq.

Ümumiyyətlə, okeanlarla bağlı məlumatlarda böyük boşluqlar qalmaqdadır və 2025-ci ilə qədər dəniz dibinin yalnız 27 faizi xəritələşdirilib. Bu da dərin dəniz ekosistemlərinin, bioloji proseslərin yaxşı araşdırılmasına mane olur.

Təbiəti qorumağa əsaslanan yanaşmalar, emissiyaların azaldılması və dəniz mühafizəsinin genişləndirilməsi də daxil olmaqla müxtəlif həll yolları mövcuddur. Lakin, okean ekosistemlərinin tam bərpası belə qlobal iqlim dəyişikliyinin azaldılması hədəflərinin yalnız iki faizini təşkil edəcək və bu da daha əsaslı və sistemli dəyişikliklərə ehtiyac olduğunu vurğulayır.

Növbəti onillik həlledicidir: sürətli, əlaqələndirilmiş qlobal tədbirlər olmadan okean sağlamlığı zamanla azalmağa davam edəcək və iqlim sabitliyini, biomüxtəlifliyin dayanıqlığını, ərzaq təhlükəsizliyini, dolanışıq vasitələrini və milyardlarla insanın rifahını təhlükə altına atacaq.

***Lalə Mehralı***

# “Dövlət başa” kitabı çapdan çıxdı

*Müsahibimiz yazıçı-publisist Təhmasib Novruzovdur*

Qısa arayış: Təhmasib Yüzasif oğlu Novruzov.1956-cı ildə Ağdam rayonunun Mirəşəlli kəndində doğulub. 1973-cü ildə orta məktəbi, 1978-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirib. 1978-1991-ci illərdə Ağdam rayonunun müxtəlif orta məktəblərində müəllim, direktor müavini, direktor. 1992-1994-cü illərdə Ağdam Rayon Xalq Deputatları Soveti sədrinin müavini işləyib. 1995-2005-ci illərdə ”XXI əsr”, ”Əsrin sözü”, ”Azadlıq fədailəri”qəzetlərinin baş redaktoru kimi jurnalistlik fəaliyyəti ilə məşğul olmuş, 2006-cı ildən hal-hazıradək Azadlıq Hərəkatçıları İctimai Birliyinin sədridiir. 1988-ci ildə ermənilərin Azərbaycana qarşı ərazi iddiası irəli sürüldüyü zamandan Milli Azadlıq Hərəkatının fəalı, AXC-nin təsisçilərindən biri, AXC Ali Məclisinin üzvü olmuş, 1992-ci ilin aprelində AXC sədri Ə.Elçibəyin Prezidentliyə namizədliyinin irəli sürülməsinə etiraz əlaməti olaraq AXC sıralarını tərk etmişdir. 1990 və 1992-ci illərdə ”Qozbeli qəbir düzəldər” və ”Qan təzyiqi” adlı pyesləri Ağdam Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. ”Yaşam romanı” adlı iki cildliyin, ”Yurd yeri: Abdal-Gülablı” adlı tarixi-publisistik kitabın, ”Nur dərəsi” romanının, ”Dövlət başa” iki cildlik kitabın və onlarla monoqrafiyanın, məqalələrin müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Yeni iki cildlik kitabının çapı ilə əlaqədar T.Novruzovla atüstü söhbəti qəzetimizin oxucularına təqdim edirik.

***-Təhmasib müəllim, yeni kitabınızın çapı ilə bağlı Sizi təbrik edirik.***

- Təşəkkür edirəm.




***- Niyə "Dövlət başa"? Bu ad özündə nəyi ehtiva edir?***

- Məşhur bir deyim var: ”Dövlət başa, quzğun leşə”. İki cildliyin adı da həmin kəlamdan götürülüb. Məni tanıyanlar bilir ki, həyatımın böyük bir hissəsini Azərbaycanın azadlığı uğrunda mübarizəyə həsr etmişəm. Müstəqilliyi əldə etdikdən sonrakı illərdə bütün fəaliyyətimdə dövlətin mənafelərini önə çəkmişəm.

Şəxsi həyatımda nələrisə itirsəm belə, öncə dövlət mənafeyini düşünmüşəm. Bu əqidə dəyişməzliyim nəticəsində çox sayda hərəkatçı yoldaşlarımıı, hətta dostlarımı itirmişəm, ancaq heç vaxt yolumdan dönməmişəm. Bütün bu həyat yolum Azərbaycan mətbuatında da əksini tapıb. İki cildlikdə məhz 1991-ci ilin noyabrından 2025- ci ilin sonuna kimi müxtəlif mətbu orqanlarda dərc edilmiş məqalə və müsahibələrim toplanıb. Hesab edirəm ki, hər biri öz dövründə yazılmış bu yazılar və müsahibələr 35 illik müstəqillik dövrünün keçdiyi keşməkeşli yol haqqında bugünkü və gələcək nəsillərdə aydın təsəvvür formalaşdıra bilər. Bütün kitabda dərc olunan materiallar 1991-ci ildən ötən dövr ərzində baş verənlərə ziyalı vətəndaş münasibətinin bir parçasıdır. Odur ki, kitabın adı dövlət mənafelərini hər zaman öndə görməyə cəmiyyəti səsləyən bir kitab olduğundan adını da buna uyğun olaraq ”Dövlət başa” qoymağı qərara aldım.

***- Sizin məqalə və müsahibələrinizin əksəriyyətini oxumuş biri kimi deyə bilərəm ki, Sizin müsahibə və məqalələrinizdə çox ciddi tarixi məqamlara və faktlara mövqe bildirmisiniz. Kitabı çapa hazırlayarkən onların üzərində yenidən işlədinizmi?***

- Yox! Bunu etsəydim, zənnimcə tarixi məqamlara hörmətsizlik edərdim. Hər bir məqalə və müsahbənin sonunda onun dərc olunduğu mətbu orqanın adı, tarixi yazılıb. Kim istəsə arxivlərdən həmin yazıların əslini əldə edə bilər. Heç bir yazıya düzəliş, əlavə və ya ixtisar olunmayıb. Necə dərc edilibsə, eləcə də kitaba daxil eləmişəm. Qəribə orasıdır ki, mənim 1991-ci ildən həmin yazılarda yazdıqlarım, dediklərim həyatda zaman-zaman təsdiqini tapıb.Bu, təvazökarlıqdan uzaq olsa da, mənim üçün çox qürurvericidir. Xüsusi qeyd etməyi lazım bilirəm ki, 1991-1993- cü illərdə AXC-nin hakimiyyətə gəlməsinin dövlətçiliyimizə vuracağı ağır zərbələr, müstəqil Azərbaycanı gözləyən təlatümlər haqqında həmin dövrdə mətbuatda yazdıqlarım və dediklərim gerçək oldu. Buna təəssüflənsəm də, bu, bir gerçəkdir və kitabı oxuyan hər kəs bunun şahidi olacaq. 1991-ci ilin noyabr-dekabr aylarında Ulu Öndər Heydər Əliyevlə müsahibəni dərc edəndə də mənə qarşı hakimiyyətlə paralel AXC fuksionerləri də təqiblərə və hücumlara rəvac vermişdilər. Ancaq məhz Heydər Iliyev onların məhvolma təhlükəsi ilə üz-üzə qoyduğu dövləti bu təhlükədən xilas etdi. Bütün bunlar tarixdir və heç kim bu tarixi dəyişdirə bilməz.

***- Kitabın məziyyətləri haqqında nə deyə bilərsiniz?***

- Hesab edirəm ki, dediklərim iki cildlik haqqında, onun məziyyətləri haqqında kifayət qədər təsəvvür yaradır. Bundan sonrası oxucunun öhdəsinə düşür. Zəhmət çəkib kitabı oxuyan hər kəs dediklərim və demədiklərimlə bağlı kifayət qədər məlumat əldə edə biləcək.

***İ. ƏLİYEV***

SON SƏHİFƏ
SƏS
9 iyun
2026-cı il

# Gələcəkdə bu bacarıqlar diplomdan daha vacib olacaq...




***Texnologiyanın sürətli inkişafı, süni intellektin geniş yayılması, iqlim dəyişikliyi, əhalinin yaşlanması və qlobal iqtisadi transformasiya əmək bazarını köklü şəkildə dəyişdirir. Bir neçə onillik əvvəl ən prestijli və gəlirli hesab olunan bəzi peşələr bu gün əvvəlki əhəmiyyətini itirir, eyni zamanda əvvəllər mövcud olmayan yeni peşələr meydana çıxır.***

Mütəxəssislər hesab edirlər ki, gələcəyin əmək bazarında yalnız diplom deyil, dəyişən şəraitə uyğunlaşmaq, yeni bacarıqlar qazanmaq və texnologiyalarla işləmək qabiliyyəti əsas üstünlüklərdən biri olacaq. Bu səbəbdən gəncləri və valideynləri ən çox düşündürən suallardan biri də budur: gələcəyin ən gəlirli və ən çox tələb olunan peşələri hansılar olacaq? SİA mövzu ilə bağlı araşdırma edib.

## Əmək bazarı niyə dəyişir?

Əvvəllər bir peşəyə sahib olmaq və həmin sahədə ömür boyu işləmək normal sayılırdı. Bu gün isə texnologiya bir çox işi avtomatlaşdırır və bəzi peşələri tamamilə dəyişdirir.

Əsas səbəblər:

süni intellektin inkişafı;

robotlaşdırma;

rəqəmsallaşma;

qlobal əmək bazarı; yaşıl iqtisadiyyata keçid.

Bu dəyişikliklər yeni imkanlar yaratdığı kimi, bəzi peşələrin azalmasına da səbəb olur.

## Süni intellekt mütəxəssisləri gələcəyin liderləri olacaqmı?

Hazırda ən sürətlə inkişaf edən sahələrdən biri süni intellektdir.

Bu istiqamətdə çalışan mütəxəssislər:

süni intellekt sistemləri hazırlayır;

maşın öyrənməsi modelləri qurur;

məlumatları analiz edir; yeni texnoloji həllər yaradır.

Bir çox beynəlxalq araşdırmalar göstərir ki, yaxın onilliklərdə bu sahədə çalışan mütəxəssislərə tələbat daha da artacaq.

## Kibertəhlükəsizlik niyə strateji peşəyə çevrilir?

Dünyada rəqəmsal sistemlər genişləndikcə kibercinayətlərin sayı da artır.

Bu səbəbdən:

dövlət qurumları;

banklar;

beynəlxalq şirkətlər;

texnologiya platformaları kibertəhlükəsizlik mütəxəssislərinə daha çox ehtiyac duyurlar.

Məlumatların qorunması gələcəkdə ən vacib sahələrdən biri hesab olunur.

## Məlumat analitikləri və data mütəxəssisləri niyə ön plana çıxır?

Müasir dövrdə məlumat yeni iqtisadi resurs hesab edilir.

Şirkətlər:

müştəri davranışını öyrənmək;

bazarı analiz etmək;

riskləri qiymətləndirmək üçün böyük həcmdə məlumatlardan istifadə edir.

Bu məlumatları analiz edə bilən mütəxəssislərin gələcəkdə də yüksək gəlir əldə etməsi gözlənilir.

## Səhiyyə sektorunda hansı peşələrin əhəmiyyəti artacaq?

Yaşlanan əhali yeni tələbat yaradır

Dünyanın bir çox ölkəsində əhalinin yaş ortalığı artır.

Bu isə:

həkimlərə;

tibb texnologiyaları mütəxəssislərinə;

reabilitasiya mütəxəssislərinə; psixoloqlara olan ehtiyacı artırır.

Səhiyyə sahəsi gələcəkdə də sabit və gəlirli istiqamətlərdən biri hesab olunur.

## Yaşıl enerji sahəsində hansı imkanlar yaranır?

İqlim dəyişikliyi və enerji təhlükəsizliyi dünya ölkələrini alternativ enerji mənbələrinə yönəldir.

Bu səbəbdən:

günəş enerjisi mühəndisləri;

külək enerjisi mütəxəssisləri;

ekoloji layihə menecerləri; enerji səmərəliliyi üzrə ekspertlər

gələcəyin perspektivli peşələri sırasında göstərilir.

## Robot texnikası və avtomatlaşdırma sahələri nə qədər vacib olacaq?

Sənaye, logistika və xidmət sektorunda robotlardan istifadə sürətlə artır.

Bu isə:

robot mühəndislərinə;

avtomatlaşdırma üzrə mütəxəssislərə;

texniki xidmət mühəndislərinə olan tələbatı yüksəldir.

Bir çox ekspert hesab edir ki, gələcəyin fabrikləri və istehsal müəssisələri bugünkündən daha çox avtomatlaşdırılmış olacaq.

## Təhsil sahəsində hansı dəyişikliklər gözlənilir?

Texnologiya inkişaf etsə də, insan kapitalının formalaşdırılması vacibliyini qoruyur.

Lakin gələcəyin müəllimləri:

rəqəmsal platformalarla işləməli;

fərdiləşdirilmiş tədris metodlarını bilməli;

texnologiyaları tədrisə inteqrasiya etməlidirlər.

Bu səbəbdən müasir təhsil mütəxəssislərinə ehtiyac artacaq.

## Hansı bacarıqlar gələcəkdə diplomdan daha vacib ola bilər?

Mütəxəssislər hesab edir ki, gələcəyin əmək bazarında aşağıdakı bacarıqlar xüsusi əhəmiyyət daşıyacaq:

analitik düşüncə;

problem həll etmə;

rəqəmsal savadlılıq;

xarici dillər;

kommunikasiya bacarığı; çevik öyrənmə qabiliyyəti.

Çünki texnologiyalar dəyişsə də, bu bacarıqlar uzun müddət aktual qalacaq.

Əmək bazarı sürətlə dəyişdiyi üçün gələcəyin ən böyük üstünlüyü konkret peşədən daha çox öyrənmə qabiliyyəti, texnologiyalara uyğunlaşmaq və daim yeni bacarıqlar əldə etmək olacaq. Bu səbəbdən gələcəyin uğurlu mütəxəssisi yalnız bir peşəyə sahib olan deyil, dəyişən dünyanın tələblərinə uyğunlaşa bilən insan hesab edilir.

***Günel Fərzəliyeva***

## BAŞSAĞLIĞI

Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatı adından sədr Bəxtiyar Nəbiyev A.Sultanova küçəsi 5" (AzMİU) ünvanı üzrə ərazi partiya təşkilatının sədri, professor

**Asəf Mirzə oğlu Ağayevin**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***



**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!



*Baş redaktor:*
**Bəhruz Quliyev**



Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**



**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
**Tiraj: 2000**